# ƏLİ HƏSƏNOVLA GÖRÜŞ



**Aprelin 9-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetində "Ulu Öndər Heydər Əliyevin 101 illiyinə həsr olunmuş görüşlər" silsiləsi çərçivəsində Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, AzİI-nin nüfuzlu məzunlarından biri olan Əli Həsənovla görüş keçirilib.**

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı və ADNSU-nun birgə təşkilatçılığı ilə keçirilən görüşdə univesitetin rektor əvəzi, dosent Vazeh Əskərov, professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

YAP İdarə Heyətinin üzvü, ADNSU-nun rektor əvəzi, dosent Vazeh Əskərov Əli Həsənovu doğma universitetin kollektivi adından salamlayıb.

"Ulu Öndər Heydər Əliyevin 101 illiyinə həsr olunmuş görüşlər" silsiləsinə YAP Veteranlar Şurasının üzvü, AzİI-nin fəxri məzunu Əli Həsənovla start verildiyini deyən dosent Vazeh Əskərov onun ADNSU üçün hər zaman əziz qonaq olduğunu qeyd edib və ölkəmizin ictimai-siyasi həyatındakı xidmətlərindən danışıb. Dosent Vazeh Əskərov çıxışında Ümummilli Lider Heydər Əliyevin qurduğu müasir Azərbaycan dövlətinin bu gün özünün çiçəklənmə dövünü yaşadığını qeyd edib və Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin səyi sayəsində abad, təhlükəsiz dünya miqyasında inkişaf etmiş ölkə kimi tanındığını vurğulayıb. ADNSU-nun rektor əvəzi ulu öndərin respublikaya rəhbərlik etdiyi bütün dövrlərdə təhsilin inkişafına göstərdiyi qayğıdan danışıb və ADNSU-nun əldə etdiyi uğurlar haqqında məlumat verib. Görüşün YAP Veteranlar Şurasının üzvü, AzİI-nin məzunu Əli Həsənovun doğum günü ərəfəsinə təsadüf etdiyini qeyd edən dosent Vazeh Əskərov "Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 100 illiyi (1920-2020)" yubiley medalını Əli Həsənova təqdim edib.

YAP Veteranlar Şurasının üzvü, AzİI-nin məzunu Əli Həsənov öz zəngin həyat təcrübəsini iştirakçılarla bölüşüb, Ulu Öndər Heydər Əliyevin istər SSRİ dövründə, istərsə də müstəqillik illərində respublikanın inkişafı və qüdrətinin artmasına verdiyi töhfədən danışıb. O, Heydər Əliyevdə idarəçilik üçün tələb olun bütün keyfiyyətlərin, o cümlədən fitri istedad, bacarıq və cəsarət, Vətəninə, xalqına, torpağına yüksək bağlılıq olduğunu vurğulayıb.

20 il şəxsən Ulu Öndərin rəhbərliyi altında çalışdığını deyən Əli Həsənov Ümummilli Lider Heydər Əliyev haqqında xatirələrini iştirakçılarla bölüşüb. O çıxışında AzİI-nin məzunu olmağın üstünlüyündən danışıb, təhsil aldığı dövrdəki xoş xatirələrini iştirakçılarla bölüşüb.

Görüşün sonunda Əli Həsənova tələbələr tərəfindən suallar verilib. Tələbələrdən Qaz-Neft-Mədən fakültəsinin II kurs tələbəsi Vüqar Axundzadə, İnformasiya Texnologiyaları və İdarəetmə fakültəsinin dekanı, dosent Fərid Ağayev və Bakı-Neft Energetika Kollecinin direktoru, dosent Ata Babayev Əli Həsənova suallar ünvanlayıb. Eləcə də qəzetimizdə öz



ictimai-siyasi məqalələri ilə seçilən, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Neft-Mexanika fakültəsinin II kurs tələbəsi Sənan Hüseynovda sual verənlər sırasında olub:

Sənan Hüseynov: Hörmətli Əli müəllim, cənab İlham Əliyev ata vəsiyyətinə sadiq qalaraq torpaqlarımızı düşmən işğalından azad etdi. Hal-hazırda isə Qarabağa köç prosesi başlayıb. Siz bu prosesin necə şaxələndirə bilərsiz?

Əli Həsənov: Fikrimcə, bu sahəyə ayrılan diqqət olduqca şaxələnib. Böyük bir peşəkarlıqla Qarabağa köç prosesi uğurla davam edir və edəcək. Bir məsələni də qeyd edim, siz ata vəsiyyətinə toxundunuz. Rəhmətlik anam vəfat etmədən 2-3 gün öncə məni yanına çağırdı və dedi ki, onu atamın yanında dəfn edim. Bu onun son arzusu idi. Heç bunu deməyə qəti ehtiyac yox idi. İndi isə daha böyük bir arzum var. Onların hər ikisini Cəbrayılda dəfn etmək. Bunu niyə tez etmək olmur, çünki orada mina təmizləmə işlərə hələ də davam edir. Allahın köməkliyi ilə o arzumu reallaşdırmaq nəsib olar mənə.

Sənan Hüseynov: Eləcə də Əli müəllim mən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar "Gəncliyə Örnək Olan Həyat" kitabının müəllifiyəm və istərdim kitabımı sizə təqdim edim.

Əli Həsənov: Çox gözəl. Səmimi söyləyirəm mənim üçün Heydər Əliyev irsini yaşadan, təbliğ edən hər bir şəxs çox dəyərli və əziz insandır. Uğurlarınız davamlı olsun.

Sənan Hüseynov: Çox sağ olun Əli müəllim, minnətdaram.

Sual hissəsindən sonra isə tədbir başa çatıb.

**Sənan Hüseynov**